# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# “NAXÇIVAN” UNİVERSİTETİ
# FƏNN SİLLABUSU

Təsdiq edirəm:___________(kafedra müdiri)
Tarix: 08 sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Aqrar iqtisadiyyat 4 kredit |
| | **Fakültə** | İqtisadiyyat |
| | **İxtisas** | İqtisadiyyat |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | III |
| | **Semestr** | I |
| | **Təlimçi** | Eyvazlı Tutu Alı qızı |
| | **e-mail** | abbasovatutu77@gmail.com |
| | **Telefon** | +994602582280 |
| | **Dərs günləri və saatları** | II gün 3-cü ,III gün 3-cü saat |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | **Əsas ədəbiyyatlar:**<br>1.Mühazirə materialları<br>2.Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik<br>**Əlavə ədəbiyyatlar:**<br>1. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>2. http://azpolitika.info/?p=388952<br>3. Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>4. Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda yenidən rəhbəliyə gəldikdən sonra əhalinin etibarlı ərzaq təminatı daim dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmuşdur. Ulu öndər respublikamızın daxili imkanları hesabına əsas ərzaq məhsulları ilə təminatına böyük önəm vermiş və bu istiqamətdə bir çox məqsədyönlü tədbirlər görmüşdür. Dahi rəhbərin təşəbbüsü ilə hələ ötən əsrin doxsanıncı illərində MDB məkanında ilk dəfə olaraq Azərbaycanda torpaq islahatlarının aparılması kənd təsərrüfatı istehsalçılarına yardım mexanizminin formalaşdırılması, həmçinin 2001-ci ildə təsdiqlənmiş “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı” çərçivəsində görülmüş işlər nəticəsində ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarının artırılmasına nail olmuşdur.<br>Bu siyasətin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində hazırda ölkəmiz bir çox strateji ərzaq məhsulları üzrə tələbatı əsasən yerli istehsal hesabına ödəyir, hətta xarici ölkələrə məhsul ixrac edir. | |
| **Fənnin məqsədləri** | Fənnin öyrədilməsi aşağıdakı məqsədlərə xidmət edir:<br>- Aqrar iqtisadiyyat fənninin nəzəri metodologiyasını auditoriyaya çatdırmaq;<br>- Aqrar iqtisadiyyat tərkib hissələrini araşdırmaq;<br>- Tələbələrdə aqrar iqtisadiyyatla bağlı sistemli bilikləri formalaşdırmaq;<br>Kənd təsərrüfatının intensiv inkişafı və ərzaq təhlükəsizliyi ilə bağlı araşdırmalar etmək<br>Fənnin məqsədinə müvafiq aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur: | |

<table>
<tr><td></td><td colspan="2">-Tədris planında verilən mövzuları tələbələrə müvəffəqiyyətlə öyrətmək;<br>-Tələbələri kənd təsərrüfatı məhsullarının inkişafı ,istehsalı,ixracı ilə bağlı prosesləri asanlıqla analiz etməyə köməklik göstərmək<br>-İqtisadi terminologiyani tələbələrə geniş şəkildə öyrətmək;<br>-Tələbələri kənd təsərüffatında texnika və texnologiyanın, aqrar sahədə kooperasiya və inteqrasiya , aqrar sahədə təkrar istehsalın səmərəliliyini mənimsənilməsi istiqamətinə yönəltmək;</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="2">“Aqrar iqtisadiyyat” fənnini kənd təsərüffatında texnika və texnologiyanın, aqrar sahədə kooperasiya və inteqrasiya,aqrar sahədə təkrar istehsalın səmərəliliyini,istehsal xərcləri və maya dəyəri, dövriyyə vəsaitləri mənimsəməklə tələbələr, iqtisadi biliklər əldə edəcək, iqtisadi mövzular istiqamətində müstəqil fikir yürütmək qabiliyyətinə yiyələnəcəklər.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>30 saat</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>30 saat</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td></td></tr>
<tr><td>Simulyasiya</td><td></td></tr>
<tr><td>Layihə</td><td></td></tr>
<tr><td>Digər</td><td></td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="2">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td>2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” - A</td></tr>
<tr><td>Cəmi:</td><td>100 bal (100%)</td></tr>
<tr><td colspan="2"></td></tr>
<tr><td>Qiymətl. metodları</td><td colspan="2">Yazılı imtahan</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="2">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
</table>

| Tematik plan | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix** | **Mövzular** | **Dərslik / Tapşırıq / Ədəbiyyat** |
| **1** | 20.09.22 | **Mövzu1.Aqrar iqtisadiyyat kursunun predmeti,məqsədi,elmi-metodoloji əsasları**<br>İlk əvvəl iqtisadiyyat haqda anlayışdan danışaq.İnsanların istehsal prosesində girdikləri ictimai istehsal proseslərinin məcmusudur.O, aşağıdakı həyati vacib məsələləri həll etmmək üçün qəbul edilmişdir:<br>-nə istehsal etmək ,hansı mal və xidmətlər cəmiyyətin tələbini ödəməyə kifayət edər<br>-nə qədər istehsal etmək<br>-necə istehsal etmək<br>-nə üçün istehsal etmək<br>Aqrar iqtisadiyyat məhsuldar qüvvələrin inkişafı və istehsal münasibətlərini,kənd təsərüffatında iqtisadi qanunların istifadəsi və fəaliyyət xüsusiyyətlərini öyrənən bir elmdir.<br>Kənd təsərüffatının vacib məsələləri torpaqların məhsuldarlığını artırmaq və təbii mühitin mühafizəsidir.<br>Aqrar iqtisadiyyat elminin predmenti kənd təsərüffatının spesifikasını nəzərə almaqla aqrar sektorda istehsal münasibətlərini,iqtisadi qanunların təsir mexanizmini və onların meydana gəlmə səbəblərini tədqiq etməkdir. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh12-30<br>**Əlavə ədəbiyyatlar:**<br>1. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>2. http://azpolitika.info/?p=388952<br>3. Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>4. Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **2** | 27.09.22 | **Mövzu 2. Aqrar iqtisadiyyat Azərbaycanın aqrar sənaye kompleksinin əsasıdır**<br>Aqrar sənaye kompleksi(ASK) istehsal , emal , bölgü mübadilə və kənd təsərüffatı məhsullarının istehlakı ilə əlaqədar bir-biri ilə iqtisadi münasibətlərdə olan xalq təsərüffatı sahələrinin məcmusudur.<br>Aqrar sənaye kompleksinin əsas sahəsi kənd təsərüffatıdır.<br>Aqrar sənaye kompleksi | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh.31-60<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | | | |
|---|---|---|---|
| **3** | 04.10.22 | **Mövzu 3. Aqrar bölmədə çoxsahəli iqtisaiyyatın formalaşması**<br>Aqrar islahatların əsas prinsipləri aşağıdakılardır:<br>1.Sahibkarlıq və təsəərüfatçılığın sərbəstlik forması<br>2.Yenidənqurmaların aparılmasında könüllülük.<br>3. Yenidənqurma islahatlarının ardıcıllığı<br>4.Aqrar islahatların aşkarlığı , aparılan tədbirlərin həyata keçirilməsi üçün geniş təbliğat işinin aparılması<br>İstehsal koorpsritivi –islahatların dərinləşməsi şəraitində təsərüffat subyektlərinin könüllü əməkdaşlığı aqrar sahə qarşısında duran vəzifələrin icrasında ,o cümlədən ərzaq təhlükəsizliyin təminatında ,sənayenin kənd təsərüffatı mənşəli xammalla təchizatında ciddi irəliləyişləri şərtləndirir. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh60-81<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **4** | 11.10.22 | **Mövzu 4. Kənd təsərüffatında bazar münasibətləri**<br>Bazar-bu əmtəələrin,məhsulların,iş və xidmətlərin satışının həyata keçirilməsi ilə əlaqədar toplanmış iqtisadi münasibətlərin mübadilər sferasıdır.İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində dövlətin iştirakı əhəmiyyətli səviyyədə qalmaql davam edir.Ancaq dövlətin sənaye və ticarət sahələrində qalmaq səviyyəsinə görə fərqlənir.Bazarda ictimqi istehsalın vacib şərti və əmtəələrin dəyəri müəyyənləşdirilir və bazar qiymətlərini yaradır.Bazar vasitəsilə istehsal xərcləri ödənilir,əvəz olunur və hər bir normal işləyən əmtəə istehsalçısı qazanc əldə edirBazar-bu əmtəələrin,məhsulların,iş və xidmətlərin satışının həyata keçirilməsi ilə əlaqədar toplanmış iqtisadi münasibətlərin mübadilər sferasıdır.İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində dövlətin iştirakı əhəmiyyətli səviyyədə qalmaql davam edir.Ancaq dövlətin sənaye və ticarət sahələrində qalmaq səviyyəsinə görə fərqlənir.Bazarda ictimqi istehsalın vacib şərti və əmtəələrin dəyəri müəyyənləşdirilir və bazar qiymətlərini yaradır.Bazar vasitəsilə istehsal xərcləri ödənilir,əvəz olunur və hər bir normal işləyən əmtəə istehsalçısı qazanc əldə edir | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh81-100<br>**Əlavə ədəbiyyatlar:**<br>5. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | | | |
|---|---|---|---|
| **5** | 18.10.22 | **Mövzu 5.Torpaq resursları**<br>Torpaq-insan cəmiyyətinin yaşaması üçün vacib şərtdir.Xalq təsərrüfatının müxtəlif sahələrində torpağın rolu eyni deyildir.Kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsidir.Torpaq birinci halda əmək cismi kimi,ikinci halda isə əmək vasitəsi kimi çıxış edir.Torpqalardan səmərəli istifadə müəyyən mənada kənd təsərrüfatı sahələrinin strukturu ilə xarakterizə olunur.Əkin və çox illik əkililər torpağın daha məhsuldar növüdür. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh101-122<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **6** | 25.10.22 | Mövzu 6. **Əmək ehtiyyatları**<br>Ölkə əhalisinin təsərrüfatın müxtəlif sahələrində fəaliyyət göstərməsindən danışarkən iki göstəricini fərqləndirmək vacibdir.Onlara əmək ehtiyatları və iqtisadi cəhətdən fəal əhali aiddir.Əmək ehtiyatları adlanan qrupa təsərrüfat sahələrində fəaliyyət göstərə bilən insanlar aid edilir.Onlara işləyən,əmək qabiliyyətli yaşda iqtisadi cəhətdən fəal əhali ilə yanaşı hazırda işləməyən və iş axtarmayan əmək qabiliyyərli şəxslərin digər hissəsi,o cümlədən istehsaldan ayrılmaqla təhsil alanlar daxil edilir.Əmək ehtiyatları cəmiyyətin əsas istehsal qüvvəsi olub,istehsalın vacib amili kimi çıxış edir və onlardan səmərəli istifadə aqrar iqtisadiyyatda istehsalın həcminin və onun iqtisadi səmərəliliyinin artırılmasına səbəb olur. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh127-142<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **7** | 01.11.22 | **Mövzu 7. Əsas vəsaitlər**<br>İstehsal vəsaitləri-maddi nemətlərin istehsalı prosesində istifadə olunan alətlər və predmetlər,ölkənin milli sərvətinin tərkib hissəsidir.İstehsalda yerinə yetirdiyi roldan asılı olaraq istehsal vısaitləri əmək vəsaitlərinə və əmək predmetlərinə bölünür.<br>Əmək vəsaitlərinə maşınlar,dəzgahlar,alətlər,həmçinin istehsal binaları,torpaq,yollar,kanallar və s.daxildir.Əmək vəsaitlərinin inkişaf səviyyəsi texniki tərəqqinin mühüm göstəricisidir.Əmək vəsaitləri natural formada əsas vəsaitlər kimi çıxış edir,ancaq dəyər keyfiyyətində çıxış etdikdə əsas fondlar olurlar.Əsas vəsaitlərin müəyyənləşdirici əlaməti-yararlı istifadə vaxtı və onların yaradılan məhsulun dəyərinə keçmə qabiliyyətidir.<br>Əsas vəsaitlər-bu maddi vəsait | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh150-169<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | | | |
|---|---|---|---|
| | | dəyərlərinin cəmidir | |
| **8** | 08.11.22 | Mövzu 8. **Dövriyyə vəsaitləri**<br>Dövriyyə vəsaitləri istehsal dövriyyə fondları və mübadilə fondlarına bölünür.Belə bölgü müəyyənləşdirilməsi onların məhsul istehsalı realizasiyası sferasında istifadəsi və bölüşdürülməsi xüsusiyyətləri ilə bağlıdır.<br>Fəaliyyət dövrü ərzində dövriy vəsaitinin daimi və dəyişən hissəsi ayrılır.Dövriyyə vəsaitinin daimi hissəsi müəssisənin fəaliyyətinin mövsümi dəyişməsindən asılı deyildir.<br>Əsas vəsaitlərin dəyişən hissəsi istehsal həcminin mövsümi artması ilə əlaqədardır.<br>Dövriyyə vəsaitinin strukturu dedikdə dövriyyə vəsaitinin ayrı-ayrı elementləri və ya onların əsas hissələri ilə faiz nisbəti başa düşülür.Dövriyyə vəsaitinin strukturu daimi deyildir.O,bir çox amillərin təsiri altında dəyişilir. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh175-183<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **9** | 15.11.22 | Mövzu 9.İnvestisiyalar və maddi texniki resursllar bazarı<br>İnvestisiya-bu,sahibkarlıq və digər obyektlərə,gəlir əldə etmək üçün uzunmüddətli pul vəsaitinin(kapitalın)qoyulmasıdır.İnvestisiyalar yaratmaq,genişləndirmək,yenidən təşkil etmək,həmçinin bununla əlaqədar dövriyyə fondlarının dəyişdirilməsi kimi cəhətləri özündə cənləşdirir.<br>Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanunda gpstərilir ki,investisiya gəlir və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən,habelə maddi və intellektual sərvətlərdən ibarətdir.<br>İnvestisiya fəaliyyəti hüquqi şəxslər,vətəndaşlar və dövlətin investisiyasının realizə edilməsi üçün praltiki fəaliyyətlərin məcmusunu əks etdirir.<br>İnvestisiyaların maliyyə,qeyri-material və real investisiya növləri ayrılır.Aqrar sahəyə investisiyalar cəlb edilərkən onun əsas xüsusiyyətləri mütləq nəzərə alınmalıdır | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh12-30<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | | | |
|---|---|---|---|
| **10** | 22.11.22 | **Mövzu10.Aqrar iqtisadiyyatınintensivləşdirilməsi**<br>Aqrar iqtisadiyyat iki formada inkişaf edə bilər:ekstensiv və intensiv.Ekstensiv inkişaf dedikdə elə bir inkişaf forması başa düşülür ki,burada məhsul istehsalının artımı becərilən torpaq sahələrinin genişləndirilməsi,təbii otlaq sahələrinin genişləndirilməsj və torpaqların təbii məhsuldarlığından istifadə ilə əldə edilir.<br>İntensiv inkişaf forması dedikdə məhsul istehsalının artımına becərilən torpqaların yaxşılaşdırılması,istehsal vasitələrinin təkmilləşdirilməsi nəticəsində nail olmaq anlaşılır.İntensiv inkişaf formasında əmək kütləsi artır.İqtisadi məhsuldarlıq hesabına məhsul istehsalının artımına nail olunur.Kənd təsərrüfatının intensiv və ekstensiv inkişaf forması arasında fərqlərin olmasına baxmayaraq onlar bir-birini inkar etmirlər. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh213-223<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **11** | 29.11.22 | **Mövzu 11. Kənd təsərüffatında elmi-texniki tərəqqi və innovasiyalar**<br>Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və onun səmərəliliyini yüksəltməkdə elmi-texniki tərəqqi böyük əhəmiyyətə malikdir.Elmi-texniki tərəqqi iki inkişaf formasına malikdir<br>Müasir elmi-texniki tərəqqi dövrü əvvəlkilərdən fərqlənir.<br>Birincisi,elm bilavasitə cəmiyyətin istehsal qüvvəsinə çevrilir.<br>İkincisi,kəşflərin və yeniliklərin meydana gəlməsi ilə onların təcrübədə tətbiqi arasındakı vaxt çox qısalır.<br>Üçüncüsü,elm təcrübəni qabaqlayır.<br>İstehsalın keyfiyyətin təkmilləşdirilməsi innovasiya formasında həyata keçirilir ki,o da innovasiya prosesinin əsasını təşkil edir.İnnovasiya prosesi bütün elmi-texniki,elmi-tədqiqat növlərinin layihə konstruktor,texnoloji təcrübə işləri,yeni malların istehsalı və onların bazara çıxışını özündə birləşdirir | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh229234<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **12** | 06.12.22 | **Mövzu 12. Aqrar sahədə kooperasiya və inteqrasiya**<br>Respunlimada bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək,torpqa islahatlarının aparılması şərtləri nəzərə alınmaqla torpaq üzərində mülkiyyət formalarının düzgün müəyyənləşdirilməsinə böyük diqqət verilmişdir.İqtisadi islahatların mühüm obyekti olan aqrar islahatların həyata | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh239-262<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov |

| | | | |
|---|---|---|---|
| | | keçirilməsi əsas istiqamətlərdən biridir.Kooperasiya birgə fəaliyyəti tərənnüm etməklə müxtəlif təşkilati formalarda həyata keçirilir.<br>Kənd təsərrüfatı kooperasiyası-kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə fəaliyyər göstərmək üçün könüllü üzvlüyünə əsaslanan birliyi olub,iştirakçıların iqtisadi-sosial və başqa tələbatlarının ödənilməsi məqsədi ilə yaradılan müxtəlif kənd təsərrüfatı kooperativləri və onların ittifaqları seçimidir. | Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **13** | 13.12.22 | **Mövzu 13. Aqrar iqtisadiyyatda təkrar istehsalın iiqtisadi səmərəliliyi**<br>Kənd təsərrüfatında ümumi məhsuldarlıq müəyyən bir dövr ərzində bütün sahələrdə istehsal olunmuş məhsulun miqdarını əks etdirir.Kənd təsərrüfatında ümumi məhsul natural və dəyərlə hesablanır.Natural göstəricilərdə o,ayrı-ayrı məhsul növləri ilə müəyyənləşdirilir.Ümumi məhsulun dəyəri təqdim edilən və faktiki mövcud olan qiymətlərlə,həmçinin maya dəyəri ilə hesablanır.Kənd təsərrüfatı istehsalında əmtəəlik səviyyəsi təsərrüfat kateqoriyaları üzrə dəyişkəndir.Əmtəəlik səviyyəsi kənd təsərrüfatı müəssisələrində əhali təsərrüfatlarına nisbətən daha yüksək olur.Bu təsərrüfatın aparılması məqsədindən asılıdır.Bazarda müəssisənin yaşaması,onun dayanıqlıq vəziyyəti əmtəə və xidmətlərin rəqabət qabiliyyəti səviyyəsi ilə müəyyən edilir. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh270-287<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |
| **14** | 20.12.22 | **Mövzu 14. Kənd təsərüffatında iqtisadi artım vətəkrar istehsal**<br>İnsan cəmiyyətinin yaşaması və inkişafının vacib şərti-maddi nemətlərin arasıkəsilməz istehsalı prosesidir.Təkrar istehsal prosesi-bu,daim əlaqədə və fasiləsiz yeniləşmədə olan istehsal prosesidir.O,özündə ümumi ictimai məhsulun təkrar istehsalını,işçi qüvvəsi və istehsal münasibətlərini birləşdirir.Üç növ təkrar istehsal var.<br>Daraldılmış,sadə,genişlənmiş<br>Hər bir təkrar istehsal təkcə kəmiyyət deyil,həm də keyfiyyət tərəflərinə malikdir | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh12-30<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | | | |
|---|---|---|---|
| **15** | 27.12.22 | **Mövzu 15. İstehsal xərcləri və məhsulun maya dəyəri**<br>İstehsal xərcləri-istehsal tsikilində istehlak olunmuş resursların dövriyyəsində sərf olunan xərclərdir.<br>Xərcləri iqtisadi və mühasibat istehsalı xərclərinə ayırırlar<br>İqtisadi xərclər-bu,istehsal resurslarının,mümkün alternativ istiqamətdə daha əlverişli istifadə edilə bilən digər rifahların dəyəridir.<br>Mühasibat xərcləri-istehsal xərclərini əks etdir.Yəni istehlak edilmiş istehsalresurslarının dəyəridir. | Mühazirə materialları<br>Aqrar iqtisadiyyat Eldar Quliyev Dərslik səh301-309<br>**Əlavə ədəbiyyatlar:**<br>Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı<br>Azərbaycan iqtisadiyyatı Murad Qurbanov<br>Aqrar istehsal strukturunun diversifikasiyası M.C. Hüseynov, V.T. Əmrahov A.M. Qasımov, A.F. Həsənov, N.A. Nərimanov |

| | |
|---|---|
| Mühazirə materialları<br>1.Mikroiqtisadiyyat 1-2, Dərslik, rus dilindən tərcümə, Bakı: 2009.s.700-725<br>**Əlavə ədəbiyyatlar:**<br>2.İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 1999<br>3.İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 2002<br>4.İqtisadi təlimlər tarixi. Bakı: 2002<br>5.Kərimov E., Qasımov B. İqtisadi nəzəriyyə. Bakı: 2004<br>6.Kərimov E., Osmanov B. İqtisadi nəzəriyyə: mikroiqtisadiyyat və makroiqtisadiyyat. Bakı: 2010 | |
| Mühazirə materialları<br>1.Mikroiqtisadiyyat 1-2, Dərslik, rus dilindən tərcümə, Bakı: 2009.s.725-754<br>**Əlavə ədəbiyyatlar:**<br>2.İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 1999<br>3.İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 2002<br>4.İqtisadi təlimlər tarixi. Bakı: 2002<br>5.Kərimov E., Qasımov B. İqtisadi nəzəriyyə. Bakı: 2004<br>6.Kərimov E., Osmanov B. İqtisadi nəzəriyyə: mikroiqtisadiyyat və makroiqtisadiyyat. Bakı: 2010 | |

**Seminar məşğələləri.Cəmi-30 saat**

| | | | |
|---|---|---|---|
| 1 | 21.09.22 | Mövzu1. **Aqrar iqtisadiyyat kursunun predmeti,məqsədi,elmi-metodoloji əsasları** | 2 s. |
| 2 | 28.09.22 | Mövzu2. **Aqrar iqtisadiyyat Azərbaycanın aqrar sənaye kompleksinin əsasıdır** | 2 s. |
| 3 | 05.10.22 | Mövzu 3. **Aqrar bölmədə çoxsahəli iqtisaiyyatın formalaşması** | 2 s. |
| 4 | 12.10.22 | Mövzu 4. **Kənd təsərüffatında bazar münasibətləri** | 2 s. |
| 5 | 19.10.22 | Mövzu 5. **Torpaq resursları** | 2 s. |
| 6 | 26.10.22 | Mövzu 6. **Əmək ehtiyyatları** | 2 s. |

| | | | |
|---|---|---|---|
| 7 | 02.11.22 | Mövzu 7. **Əsas vəsaitlər** | 2 s. |
| 8 | 16.11.22 | Mövzu 8. **Dövriyyə vəsaitləri** | |
| 9 | 23.11.22 | Mövzu 9. **İnvestisiyalar və maddi texniki resursllar bazarı** | 2 s. |
| 10 | 30.11.22 | Mövzu 10. **Aqrar iqtisadiyyatınintensivləşdirilməsi** | 2s. |
| 11 | 07.12.22 | Mövzu 11. **Kənd təsərüffatında elmi-texniki tərəqqi və innovasiyalar** | 2 s. |
| 12 | 14.12.22 | Mövzu 12. **Aqrar sahədə kooperasiya və inteqrasiya** | 2 s. |
| 13 | 21.12.22 | Mövzu 13. **Aqrar iqtisadiyyatda təkrar istehsalın iqtisadi səmərəliliyi** | 2 s. |
| 14 | 27.12.22 | Mövzu 14. **Kənd təsərüffatında iqtisadi artım vətəkrar istehsal** | 2 s. |
| 15 | 15.04.22 | Mövzu 15. **İstehsal xərcləri və məhsulun maya dəyəri** | 2 s. |

**Fənn müəllimi:** **T.A.Eyvazlı**